# İbtidai siniflərdə şagirdlərin yazı bacarıqlarının inkişafına təsir göstərən amillər

**Samirə Həsənova**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
**E-mail:** samiraqasanova@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. A.X. Hacıyev,
ped.ü.f.d., dos. B.O. İbadova

**Açar sözlər:** ibtidai siniflər, müəllim, şagird, yazı bacarıqları, amil, komponent
**Ключевые слова:** начальные классы, учитель, ученик, письменные умении, фактор, компонент
**Key words:** primary classes, teacher, student, written skills, factor, component

Doğma dilə dərindən bələd olmaq şəxsiyyətin cəmiyyətdə özünü düzgün ifadə etməsi və ünsiyyətə girməsi üçün fərdi ehtiyacdır. Şagirdin uğurlu rabitə qurması, davamlı əlaqə yaratması yalnız gözəl, rəvan, axıcı nitq söyləməklə məhdudlaşmır. Uşaqlar fikirlərini yazılı formada realizə etməyi, dil vahidlərindən lazımi şəkildə yararlanmağı və konkret kommunikativ situasiyalarda onlardan faydalanmağı da bacarmalıdırlar.

Yazı şifahi nitqin qrafik işarələrlə təsviridir. Amerikalı metodist Piter Heqboldtun təbirincə desək, şifahi və yazılı nitq ikimərtəbəli evin birinci və ikinci mərtəbəsinə bənzəyir. Şifahi nitq birinci, yazı isə ikinci mərtəbədir. Əvvəlki mərtəbə olmasa, onun üzərində növbətini qurmaq mümkünsüzdür. O hətta bildirmişdir ki, yazı nitqin xüsusi bir növü deyil, dildən istifadənin ikinci və ən mürəkkəb mərhələsidir. Bu səbəbdən şifahi nitqi və yazını nitqin formaları kimi dəyərləndirmək lazımdır. Şifahi nitq əsas, yazı isə daha dərin, mürəkkəb formadır [6, s. 189]. Biri digərinin mövcudluğuna və inkişafına zəmin yaradır. Ona görə də nitqin formaları vəhdətdə mənimsədilməlidir.

Azərbaycan dilinin dövlət dili kimi ümumtəhsil məktəblərində tədrisinin əsas məqsədi şagirdlərə dinləyib-anlama, danışma, oxu və yazı bacarıqları qazandırmaqla onların nitqini inkişaf etdirmək, şəxsiyyət kimi formalaşmalarına zəmin yaratmaqdan ibarətdir. Yazı prosesinin mürəkkəbliyini nəzərə alaraq, problem kimi məhz onun üzərində dayanaq. Ümumtəhsil məktəblərində yazı təlimi qrafik simvollar vasitəsilə qurulan yazılı ünsiyyətin şagirdlərdə bacarıq kimi formalaşdırılmasına istiqamətlənir. Birinci sinifdən etibarən hərflərin mənimsənilməsi, səslərin fərqləndirilməsi, onların hərflərlə əlaqələndirilməsi və s. sadə fəaliyyətlər üzrə iş aparılır, proses asandan çətinə prinsipi üzrə tədricən mürəkkəbləşir — orfoqrafik vərdişlərin qazanılması, qısa həcmli mətnlərin, inşaların və esselərin yazılması və s.

Yazı bacarıqlarının mənimsədilməsi prosesi tərkibindəki komponentlər nəzərə alınaraq təşkil olunmalıdır.

1. Leksik-qrammatik komponent: fəal lüğət fondunun müəyyənləşdirilməsi, tapşırığa uyğun olaraq mətndə müxtəlif qrammatik-sintaktik konstruksiyaların seçilməsi və onlardan istifadənin tənzimlənməsi.
2. Orfoqrafik və punktuasion komponent: yazılı nitqin orfoqrafik-korrektiv baxımdan düzgün formulyasiyası, mətnin cümlələrə düzgün bölünməsi, yazı fasilələrinin, intonasiyanın durğu işarələri vasitəsilə qrafik təsvir edilməsi.
3. Üslubi (stilistik) komponent: yazıda üslubların (bədii, publisistik, elmi, rəsmi-işgüzar,

məişət) məzmunca (I-IV siniflərdə üslubları termin kimi mənimsətmək və bu istiqamətdə çalışmalar vermək çox tezdir, lakin mətn üzrə işlə əlaqədar alt-standartlar şagirdləri həmin səmtə yönləndirir) fərqləndirilməsi və onlardan məqsədəmüvafiq şəkildə istifadənin tənzimlənməsi.

4. Struktur-təşkilati komponent: sözlərdən cümlə, cümlələrdən isə qısa mətnlərin qurulması, mətnin abzaslara bölünməsi.

5. Məzmun komponenti: yazılmış mətnin mövzuya uyğunluğunun müəyyənləşdirilməsi, mətnin hazırlanması üçün əlavə məlumat və ya informasiyanın toplanması.

6. Sosial-mədəni komponent: yazıda sosial-mədəni əlaqələrin, münasibətlərin nəzərə alınması, yazıda milli-mənəvi dəyərlərin, mentallığın öz əksini tapması, qarşı tərəfin statusunun müəyyənləşdirilməsi, dilin zənginliyini göstərən vasitələrdən lazımınca istifadə edilməsi.

7. Psixoloji komponent: şagirdlərdə yazı bacarıqları qazanmağa psixoloji zəmin yaradılması, öyrənənlərin maraq, meyil və motivasiyalarının əsas götürülməsi, yazı bacarıqlarının digər fəaliyyət növləri ilə qarşılıqlı əlaqədə, vəhdətdə mənimsədilməsi.

Bəs ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının formalaşdırılmasına və inkişafına hansı amillər təsir göstərir?

Fransız linqvisti, professor Marsel Koen (1884-1974) həmin faktorları belə sistemləşdirmişdir: yazıya ictimai tələbat; dilin xüsusiyyətlərinin yazıya təsiri; təhsil sisteminin yazıya təsiri; ictimai proseslərin yazıya təsiri; yazı ləvazimatları və materialları [5, s. 514].

Rus tədqiqatçısı V.M.Alpatov (1945) şagirdlərin yazı bacarıqlarının inkişafına təsir göstərən amilləri dörd qrupda təsnif etmişdir: linqvistik, iqtisadi, psixoloji, siyasi-mədəni faktorlar (mədəni amil müasir cəmiyyətdə siyasi faktordan kənarda təhlil oluna bilməz [4, s. 51-53].

Qərb metodistləri, tədqiqatçıları şagirdlərin yazı bacarıqlarına təsir edən faktorları aşağıdakı kimi sistemləşdirmişlər (araşdırma Kean Universitetinin təşkilatçılığı ilə aparılmışdır):

— dərsdə şagirdlərin əməkdaşlığa meyilliyi;
— məktəblilərin yazı prosesində iştirakının fəallıq dərəcəsi;
— dil qaydaları mənimsədilərkən məlumatların ötürülməsinin tənzimlənməsi;
— şagirdin müvafiq dil qaydalarından lazımınca istifadəsi;
— öyrənənin özünü qiymətləndirməsi, səhvləri üzərində işləməsi [7, s. 9-11].

Mövzu ilə əlaqədar olaraq ölkəmizdə məhdud çərçivəli araşdırmalar aparılmışdır:

Akademik M.İbrahimov (1911-1993) "Dil və ədəbiyyat dərslərini nümunəvi təşkil edək" sərlövhəli məqaləsində mövzu ilə əlaqədar qeyd etmişdir ki, "məktəblərin çoxunda səliqəli, yaraşıqlı xəttə fikir verilmir, müəllimlərin əksəriyyətinin hüsnxət qaydalarından xəbəri yoxdur; onlar hərflərin ünsürləri və tənasübü haqqında məlumatsızdırlar, yazı lövhələri də didaktikanın tələblərinə cavab verə bilmir. Yazı vərdişləri qüsurlu olan şagirdlər gələcəkdə də həmin qüsurları islah etmirlər və ya bu, mümkün olmur" [3, s. 43].

Dilçi alim C. Məmmədov problemlə əlaqədar olaraq vurğulamışdır: "...inşalar yazı bacarıqlarının inkişafına müsbət təsir göstərən amillərdəndir. Yaradıcı təxəyyülün imkanları üzə çıxmayanda, hələ ondan qabaq bu imkana meydan verilməyəndə dil düşüncəsizliyi yaranır. Dilin ruhunu və təbiətini duymaq çətinləşir. Sözün, ifadənin, cümlənin ifadə imkanları düzgün qurulmur" [1].

Professor B.Xəlilov (1966) bildirmişdir ki. əgər şagirdlər öz fikirlərini dürüst, dolğun

şəkildə yaza bilmirlərsə, deməli, yazı vərdişləri qüsurludur. Tədqiqatçı əlifbanın tez-tez dəyişdirilməsini, elmi-texniki tərəqqinin nailiyyətlərinin yüksəlməsini – kompüterin, internetin həyatımıza gəlişini yazı vərdişlərinin formalaşdırılmasına maneçilik törədən başlıca faktorlar kimi dəyərləndirmişdir. O, yazı bacarıqlarının mənimsədilməsi zamanı meydana çıxan problemlərin aradan qaldırılması məqsədilə mütaliə ilə məşğul olan cəmiyyət üzvlərinin yetişdirilməsini, teatr tamaşalarının təşkili və müzakirələrinin keçirilməsini, inşa yazılardan istifadənin genişləndirilməsini, dili öyrədənlərə diqqətin, qayğının artırılmasını tövsiyə etmişdir [2, s. 105-113].

İnsanın yaradılış xüsusiyyətləri fərdi yazı bacarıqlarının iki əsas amilin təsiri nəticəsində formalaşmasını labüdləşdirir: subyektiv və obyektiv amillər. Təlim prosesində yazı bacarıqlarının inkişafı subyektiv faktorlarla sıx bağlıdır. Onlar iki qrupa bölünürlər: fərdin anatomik və psixofizioloji xüsusiyyətləri. Birinci qrupa qolun strukturu (qol sümüklərinin uzunluğu, hərəki birləşmələrin möhkəmliyi), gözlərin quruluşu və görmə xüsusiyyətləri (konvergensiya – yaxınlaşdırma, akkomodasiya – uyğunlaşdırma, binokulyarlıq – müşahidə olunan obyektlər arasında məsafənin müəyyənləşdirilməsi və s.) aiddir. İkinci qrupa psixofizioloji xüsusiyyətlər daxildir. Yazının qrafik işarələrinin qavranılması mürəkkəb prosesdir və uzun müddət davam edir. Bu zaman kəsiyində eşitmə və görmə aparatı formalaşır, qrafik işarələr vasitəsilə sözlərin, cümlələrin yaranması tənzimlənir.

Həmin fəaliyyətin yazı bacarığına çevrilməsi məqsədilə öncə hərflər, sonra isə sözlər və cümlələr üzərində iş aparmaq (çoxsaylı tapşırıqlar verməklə) vacibdir. Yazı bacarıqlarının inkişaf etdirilməsi üçün məqsəddən asılı olaraq üç tapşırıq növünün tətbiqi məqsədəuyğundur: üzündənköçürmə yazı, imla, inşa. Üzündənköçürmə yazının başlıca vəzifəsi hərflərin və sözlərin vizual təhlilinin aparılmasından ibarətdir. İmlanın yazdırılmasında müəllimin əsas məqsədi şagirdlərin orfoqrafik bacarıqlarının möhkəmləndirilməsi və yoxlanılmasıdır. İnşa yazıların təşkili öyrənənlərin fikirlərini sərbəst şəkildə ifadə etməsinə istiqamətlənir.

Sinir sistemi və yaddaş, gigiyenik, texniki qaydalar da psixofizioloji xüsusiyyətlərə daxildir.

Obyektiv amillər şagirdlərin yazı bacarıqlarının formalaşmasında və inkişafında müəyyən əhəmiyyətə malikdir. Onlardan bəziləri ikinci dərəcəli rola malikdir. Buraya otağın işıqlandırılması, kağızın, yazı alətlərinin keyfiyyəti aid edilir. Yazı təliminin təşkili metodikası isə obyektiv faktorlar arasında ən önəmlisidir, pedaqoqdan böyük təcrübə, xüsusi istedad tələb edir.

Obyektiv və subyektiv xarakterli amillərin hər biri kiçikyaşlı məktəblilərin – gələcəyin şəxsiyyətinin yazı bacarıqlarının inkişafına bilavasitə və ya bilvasitə təsir göstərir.

Mövzu ilə əlaqədar olaraq təsnifatı aşağıdakı kimi vermək də mümkündür:

— Linqvistik amillər: dil qaydalarının mənimsədilməsi, sözün yazılışı ilə deyilişinin fərqlənməsi, yazı texnikası, sözün semantik çalarlığı, çətin sözlərin asanlaşdırılma dərəcəsi, lüğət ehtiyatı, əlifba sisteminin dinamikliyi, yazı bacarıqları formalaşdıran tapşırıqların keyfiyyəti.

— Təşkilati amillər: ETT (Elmi texniki tərəqqi), müəllimin hazırlığı, maddi-texniki təminat, dərsliklər və metodik vəsaitlər, resursların əlçatanlığı, proqramda yazı bacarıqlarının mənimsədilməsinə ayrılan vaxt, təlimin təşkili prosesində çoxsaylı üsulların seçilməsi və tətbiqi, müvafiq təlim formalarından istifadə, optimal strategiyanın tətbiqi.

— Psixoloji amillər: şagirdin daxili motivasiyası, öyrənənlərin stimullaşdırılması, təhsil alanın yaş xüsusiyyətləri, öyrənənin məktəbə hazırlıq səviyyəsi, uşaqların maraq, meyil, istəklərinə əsaslanılması, məktəblinin diqqətinin əsas prosesə yönəldilməsi, müəllim-şagird

münasibətləri, şagird-şagird münasibətləri, müəllim-şagird-valideyn münasibətləri, müəllim-valideyn münasibətləri.

— Coğrafi amillər: uşağı əhatə edən mühit, şagirdin yaşadığı bölgə, rayon və ya şəhər, demoqrafik disbalans, məktəbin yerləşmə xüsusiyyətləri.

— Sosial-mədəni amillər: uşağın ictimai mənsubiyyəti (ziyalı və ya qeyri-ziyalı ailədə doğulması), sinfin sosial tərkibi, ailədə ikidillilik şəraiti; şagirdin tərbiyə aldığı ailənin statusu, televiziya, radio, internetin təsiri.

— Tarixi amillər: yazı sistemindən istifadə, yazıda ənənəvi prinsip.

Respublikamızın ümumtəhsil məktəblərinin ibtidai siniflərində aparılan pedaqoji müşahidələr, dərs dinləmələr və mövcud təcrübənin təhlili (o cümlədən xarici tədqiqatlar) nəticəsində müəyyənləşdirilmiş amillərin əvvəl və ya sonra qeyd edilməsindən asılı olmayaraq onların hər biri kiçikyaşlı məktəblilərin yazı bacarıqlarının inkişafına eyni dərəcədə təsir göstərir. Məhz bu səbəbdən dərsin təşkili, yazı təliminin planlaşdırılması zamanı həmin faktorlar diqqət mərkəzində saxlanılmalı, müvafiq fəaliyyət istiqaməti seçilməlidir.

**Məqalənin aktuallığı.** Respublikamızda ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının inkişafına təsir göstərən amillərin müəyyənləşdirilməsi və sistemləşdirilməsi ilə bağlı tutarlı, genişmiqyaslı araşdırmalar aparılmadığından problem hazırkı dövrdə böyük aktuallıq daşıyır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ibtidai sinif şagirdlərinin yazı bacarıqlarının formalaşmasına və inkişafına təsir göstərən amillər sadalanır, Rus-Avropa, Qərb tədqiqatçılarının təsnifatları, yerli metodistlərin, alimlərin fikirləri nəzərdən keçirilir, həmçinin prosesin səmərəli təşkilinə zəmin yaradan faktorlar ümumiləşdirilərək sistemli bölgüsü şəklində diqqətə çatdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** İbtidai sinif şagirdlərinin yazı bacarıqlarının inkişafına təsir göstərən amillərin müəyyənləşdirilməsi və sistemləşdirilməsi ilə əlaqədar aparılan araşdırmaların yetərsizliyi bu istiqamətdə tədqiqat işinin yazılmasını labüdləşdirir. Məqalə mövcud çatışmazlıqların aradan qaldırılmasına hesablandığından böyük praktik əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Bəydili (Məmmədov) C. Dil düşüncəsizliyi... II yazı. "Ədəbiyyat" qəz., Bakı, 2014, 7 noyabr.
2. Xəlilov B.Ə. Dil mədəniyyəti. Bakı: Papirus NP, 2016.
3. İbrahimov M. Ana dili – hikmət xəzinəsi. Bakı: Azərnəşr, 1991.
4. Алпатов В.М. Факторы, влияющие на выбор системы письма // Известия Российской академии наук. Серия литературы и языка, 2002, № 2.
5. Истрин В.А. Возникновение и развитие письма. М.: Просвещение, 2010.
6. Гез Н.И., Фролова Г.М. История зарубежной методики преподавания иностранных языков. Учебное пособие для студ. лингв, ун-тов и фак. ин. яз. высш. пед. учеб. заведений. М: Академия, 2008.
7. Chinwe H. New kids on the block: Understanding and engaging elementary readers and writers in new times // Journal of school connections, 2012, v.4, No 1, pp.3-24

**С. Гасанова**

## Факторы, влияющие на развитие навыков письма учеников начальных классов

## Резюме

В статье дана информация о компонентах и важности письменной речи учеников начальных классов, перечислены факторы влияющие на развитие и формирование их как навыков. А также были пересмотрены классификации русско-европейских, западных учёных, мысли, местных методистов и ученых, связанные с этой темой. Автор, обобщая факторы, создающие основы организации продуктивного процесса, донёс во внимание в систематической форме.

**S. Hasanova**

## Factors influencing the development of writing skills of pupils at primary schools

## Summary

The article gives information about the importance and components of primary school pupils' writing skills, as well as the factors influencing the formation and development of skill. The views of Russian-European, Western researchers, local methodologists and scholars have been taken into consideration on the subject. The author summarizes the factors that make the process effective and draws attention to the systemic division.

**Redaksiyaya daxil olub:** 22.01.2019